STOLZE



İDEYA SİZDƏN, REALLAŞDIRILMASI BİZDƏN!




GREENHOUSE CONSTRUCTION
GROUND WORKS
HEATING
HEAT STORAGE
UNIT
WATER STORAGE
IRRIGATION
AIR CIRCULATION
PROCESS AUTOMATION
EBB FLOOD
WEATHER STATION
AIR OPTIMATION
CULTIVATION GUTTERS
HIGH PRESSURE FOG
DRIP IRRIGATION
TOP CROP
GROWTH LIGHT
MEASURING BOX

“Stolze” şirkəti bağçılıq, istixana və kommunal təsərrüfatlar üçün avtomatlaşdırma, istilik, işıqlandırma, suvarma və yüksək təzyiqli nəmləndirmə (sisləmə) sistemlərinin istehsalı sahəsində ixtisaslaşır. Qurğuların hər biri xüsusi hazırlanır. Biz etibarlı və dəqiq həll yollarını tapmaq üçün sizin istəklərinizi nəzərə alaraq çalışırıq!

İstər iqlim kontrol sistemləri olsun, istərsə də müxtəlif qurğuların bir – birinə tam uyğunlaşması - bütün quraşdırma işləri layihələndirilmədən tutmuş reallaşdırma mərhələsinə qədər (sizin istək və arzularınızı, eləcə də yerli şəraiti nəzərə almaqla) yerində və bizim rəhbərliyimiz altında həyata keçirilir. Bütün komponentlər əsasən bizim montaj mühəndislərimiz və ixtisaslaşmış (yerli) podratçılar tərəfindən quraşdırılır, mühəndislərimiz isə bu prosesə əvvəldən axıra kimi nəzarət edirlər. Siz hətta quraşdırmadan sonra da təcrübəli servis mühəndislərindən ibarət komandamıza etibar edə bilərsiniz!






# "STOLZE" ŞİRKƏTİ HAQQINDA MƏLUMAT

"Stolze" şirkəti 1969-cu ildə təsis olunub və o vaxtdan bəri istixana bağçılığı sahəsində tanınmış brendə çevrilib. 100-dən çox işçisi olan "Stolze" şirkəti müasir bağçılıq təsərrüfatı üçün avtomatlaşdırma, istilik, işıqlandırma, suvarma və yüksək təzyiqli sisləmə sistemlərinin istehsalı sahəsində ixtisaslaşır. Şirkətimiz Niderland Krallığının Masdayk (Maasdijk) şəhərindəki müasir ofis binasında yerləşir.

Son bir neçə onillikdə "Stolze" şirkəti istixana bağçılığı və digər müvafiq sənaye müəssisələri üçün bir çox milli və beynəlxalq layihələr həyata keçirmişdir.

Biz öz məhsullarımızı ayrı-ayrılıqda da təchiz edə bilərik, lakin bizim ixtisas sahəmiz bir – birinə tam uyğunlaşan sistemləri, avtomatlaşdırma, istilik, işıqlandırma, suvarma və yüksək təzyiqli sisləmə sistemləri, CO2  sistemləri məqsədyönlü şəkildə özündə birləşdirilmişdir.

Biz inanırıq ki, ideal quraşdırma (montaj) müxtəlif ixtisas sahələri arasında mükəmməl koordinasiyadan irəli gəlir.




# İDEYA SİZDƏN, REALLAŞDIRILMASI BİZDƏN!

İqlim kontrol sistemi və ya müxtəlif sistemlərin bir – birinə tam uyğunlaşması - istəkləriniz nə olursa olsun, biz sizinlə birlikdə düşünür və istəklərinizə uyğun olaraq hazırlanmış həll variantlarını sizə təklif edirik.

“Stolze” şirkətinin heç bir qurğusu standart deyil, belə ki, biz təcrübəmizə əsasən bilirik ki, hər bir müəssisə özü-özlüyündə unikaldır. Ümumiyyətlə, bağçılıq müəssisəsində yetişdi-rilən məhsulları texniki qurğulara uyğunlaşdırmaq zəruridir. Sahibkarın konkret istəkləri isə bizim üçün daha önəmlidir. Biz müştərinin tələblərini “Stolze” şirkətinin təcrübəsi ilə bir araya gətirərək, biznesiniz üçün müvafiq istehsal və keyfiyyət standartlarına uyğun ideal quraşdırılmanı təmin edirik.

# AVTOMATLAŞDIRMA

Avtomatlaşdırma (elektrotexniki qurğular) istixananızın normal fəaliyyəti üçün əsas amildir. Bağçılıq və istixana sektorunda mühüm funksiyalara nəzarət olunması optimal məhsul artımı üçün çox vacibdir. İlk növbədə, bütün müasir qurğuların işləməsi üçün sadə elektrik enerjisi təchizatı lazımdır. Bu kompleks sistemin hazırlanması və quraşdırılması “Stolze” şirkəti tərəfindən həyata keçirilir. Bütün paylayıcı lövhələr, o cümlədən proqramlaşdırılan kontrollerlər (PLC) bizim zavodumuzda yığılır. Əmin ola bilərsiniz ki, biz müvafiq həll variantını təklif etməklə yanaşı, həm də etibarlı və yüksək keyfiyyətli quraşdırılma işlərini icra edirik. “Stolze” şirkəti “Priva” kompüter sistemlərinə üstünlük verir. İqlim – kontrol sistemnin tənzimlənməsi, suvarma, (məhsulun böyüməsi üçün) işıqlandırma və enerjinin idarə olunması “Priva” kompüter sistemi vasitəsi ilə cəmi bir komputerdə həyata keçirilə bilər!

Bazarda həqiqi lider hesab olunan “Priva” kompüter sistemlərinin və “Stolze” şirkətinin təcrübəsi sayəsində siz sistemlərin bir – birinə tam uyğunlaşması ilə yanaşı, texniki xidmət və mümkün adaptasiyaların da həyata keçiriləcəyinə əmin ola bilərsiniz.

.





# İSİTMƏ

Hər bir istilik qurğusu istixanalarda temperaturun bərabər yayılmasını təmin etməlidir və bu, optimal məhsul yetişdirilməsi baxımından əsas şərtdir. Keyfiyyət, xərclər və enerji sərfiyyatı arasında tarazlıq hesablamalarımız zamanı bizim üçün üstünlük təşkil edən üç əsas məfhumdur.

Müəssisənizdəki qurğularda enerji əsas amil olduğundan, yaxşı hazırlanmış və quraşdırılmış istilik sistemi maksimum üstünlüyü təmin edir. CO2 (karbon qazı) qurğuları məhsulunuzun böyüməsi üçün olduqca əhəmiyyətlidir. “Stolze” şirkəti istixananın içərisində karbon qazının (CO2) paylanmasını təmin etmək üçün özünün hazırladığı hesablama moduluna malikdir.

“Stolze” şirkəti aşağıdakıları hazırlayır, montaj edir və quraşdırır:

- İstixanalarda istilik sistemlərinin quraşdırılması
- Qazanxananın quraşdırılması
- KİE (kombinə edilmiş istilik və enerji) qurğuları
- İstiliyin saxlanması üçün çən sistemləri
- İsitmə qazanları
- CO2 qurğuları
- Qaz və yanacaq odluqları
- İstilik mübadiləsi qurğuları
- Qaz xətləri
- Artırma sistemləri
- Kondensatorlar
- Torpaq isitmə
- İstilik izolyasiyası
- Əvvəlcədən izolyasiya edilmiş boru kəmərləri
- Hava tənzimləmə qutuları



# İŞIQLANDIRMA

Müasir bağçılıq (istixanalar) üçün işıqlandırma sistemi əvəzolunmazdır. Sadəcə şitil və dekorativ bitkiləri becərənlər deyil, tərəvəz əkinçiləri də günün işıqlı vaxtını süni şəkildə uzatmaq üçün bütün imkanlardan yararlanmağa çalışırlar. İşıq və işıq qaynağının bərabər paylanması yüksək məhsuldarlıq üçün çox əhəmiyyətlidir. Ən yüksək məhsuldarlıq yalnız yaxşı planlaşdırılmış işıqlandırma sayəsində əldə oluna bilər.

### Assimilyasiya işıqlandırması

"Stolze" şirkəti bağçılıq (istixanalar) üçün işıqlandırma sistemlərinin quraşdırılması sahəsində geniş təcrübəyə malikdir və bu sahədə yenilikləri yaxından təqib edir. Biz müxtəlif nüfuzlu tədarükçülərlə birlikdə çalışaraq, ən səmərəli həll variantlarını layihələndiririk. "Stolze" şirkəti bütün assimilyasiya işıqlandırma sistemlərini istehsal edir. Emalatxanamızda paylanma panelləri və xüsusi kabellər montaj olunur. Bundan sonra isə müştərinin obyektində həyata keçirilən quraşdırılma işləri daha sürətlə yerinə yetirilir.

### LED işıqlandırma

İşıq-diod (LED) işıqlandırma yüksək məhsuldarlıq, erkən çiçəklənmə, daha sürətli kökatma / cücərmə və bitki böyüməsinə daha yaxşı nəzarət kimi bir çox üstünlüyə malikdir. Bundan başqa, LED lampaları daha uzunömürlüdür və enerji sərfiyyatını azaldır.

"Stolze" şirkəti "Phillips LED Horti" şirkəti ilə əməkdaşlıq edir. "Phillips" şirkətinin nüfuzlu dileri kimi, biz LED-işıqlandırmanın hazırlanmasında yaxından iştirak edirik. "Phillips" öz ortaqlarını layihə və sahə testlərində dəstəkləyir. Bunun



yollarından biri kimi, “Phillips” şirkətinin bitki fizioloqları işıqlandırma haqqında biliklərini layihələrin dizaynı və yoxlanılmasında tətbiq edirlər. Həmçinin mütəxəssislər işıqlandırma sistemlərinin  planlaşdırılması və quraşdırılmasında da öz bilik və təcrübələrini paylaşırlar. Nəticədə, biz uğurlu və enerji sərfiyyatı baxımından səmərəli məhsul istehsalı üçün müxtəlif həll variantları təklif edə bilirik.

# SUVARMA

Düzgün suvarma sisteminin quraşdırılması müasir bağçılıq üçün əvəzedilməzdir. Bitkinin yaxşı böyüməsini təmin etmək üçün hər bitkiyə fərqli komponentlər və müxtəlif həcmli su tələb olunur. “Stolze” şirkəti hər cür əkinçilik üçün su texnologiyasını hazırlayır, layihələndirir və montaj edir.

Eyni zamanda, həm etibarlı, həm də səmərəli olan bu suvarma sistemləri diqqətlə planlaşdırılır. “Stolze” şirkəti xüsusi vahid konstruksiyaların hazırlaması, layihələndirilməsi və quraşdırılması üçün cavabdehdir. Modul tam nasos dövrəsini, avtomatlaşdırma və PLC-lərin yerləşdirilə biləcəyi paylayıcı lövhələrlə birlikdə təchiz edilir. Biz paylayıcı lövhələr, nasoslar, filtrlər və klapanlar kimi bütün lazımı komponentləri paslanmayan polad çərçivələrdə (öncədən hazırlanmış) sxemə əsasən yerləşdiririk.

Modulların standart quruluşuna görə, “Stolze” şirkəti emalatxanada montaj işinin böyük qismini həyata keçirə bilər və beləliklə, ərazidə modulların inşasını daha da sürətləndirmək mümkündür.





# YÜKSƏK TƏZYİQLİ SİSLƏMƏ (“S-FOG”)

Yüksək təzyiqli sisləmə sistemləri havanın rütubətini yaxşılaşdırmaqla yanaşı, istixanadakı temperaturu da aşağı salır (bu sistem sayəsində temperaturu 4 - 7 Co dərəcə aşağı salmaq mümkündür). “S-FOG” yüksək təzyiqli sisləmə sisteminin analoqu yoxdur.

Sistem elə layihələndirilmişdir ki, onu yüksək su təzyiqi altında əl ilə sıxmaq kifayətdir. Müştərilər bu sistemi istixanada özləri də quraşdıra bilərlər. Quraşdırma zamanı səssiz fırlanan nasoslar və geriyə osmos sistemləri aşağı texniki qulluq xərclərini və daha az səs-küyün yaranmasını təmin edir.

“S-FOG” sisteminin əsas üstünlükləri:

- Havada optimal rütubətin təmin edilməsi
- Ətraf mühit temperaturunun azaldılması
- Vahid iqlimin yaradılması
- Enerji və su xərclərinin azaldılması
- Asan quraşdırma
- Yüksək keyfiyyətli səssiz fırlanan nasoslar
- Az baxım tələb edən sisləmə sistemi
- Daha az CO2 itkisi
- Bitki aktivliyinin artırılması
- Məhsuldarlığın və keyfiyyətin artırılması
- Mövcud mikro-iqlim kompüterinizə asan inteqrasiya və ya avtonom iş rejimi



# FUNKSİONALLIQ

“Stolze” şirkəti əsasən istixana, bağçılıq sahəsində mühəndis-texniki (montaj) xidmətlərin göstərilməsi ilə məşğuldur. Lakin bağçılıqda istifadə olunan texnologiyalar digər sahələrdə də tətbiq oluna bilər və buna görə də “Stolze” şirkəti bağ mərkəzlərində də istilik, avtomatlaşdırma və işıqlandırma sistemlərinin quraşdırılmasını həyata keçirir.

Bu layihələri həm Niderland Krallığında, həm də bütün Avropada (xüsusən də Skandinaviya ölkələrində və İngiltərədə), eləcə də Rusiya və Asiyada reallaşdıran xüsusi şöbəmiz var.

“Stolze” şirkəti istənilən bağ mərkəzi və ya digər obyektlər üçün individual həll variantları təklif edir. Biz qurğuları müştərinin tələb və istəklərinə uyğun layihələndiririk.

Biz “SAIA PLC” texnologiyası vasitəsi ilə iqlim – kontrol sistemlərini və işıqlandırmanı layihələndirir və proqramlaşdırırıq. Bu sistem bütün sahəni sensor ekran, fərdi kompüter və ya smartfon vasitəsi ilə idarə etmək üçün nəzərdə tutulub.



# NİYƏ MƏHZ "STOLZE"?

Bağçılıq və kommunal təsərrüfatlar üçün avtomatlaşdırma, istilik, işıqlandırma, suvarma və yüksək təzyiqli sisyaratma sistemlərinin istehsalı sahəsində ixtisaslaşan "Stolze" şirkəti həm ölkə daxilində, həm də xaricdə geniş təcrübəyə malikdir.

- Bütün işlər əvvəldən axıra kimi şirkət daxilində həyata keçirilir.
- Biz (istənilən vəziyyətdən asılı olaraq) istəklərinizə uyğun həll variantını təklif edirik
- Biz kompleks sistemlər sahəsində mütəxəssisik
- Biz gələcək üçün istehsal edilmiş keyfiyyətli material və qurğularla işləyirik
- Sizin qurğunuz bir montajçı tərəfindən quraşdırılacaq və texniki xidmətlə təmin olunacaq. Buna görə də siz daim bir xidmət təchizatçısı ilə əlaqə saxlayacaqsınız
- Biz əsasən öz montaj mühəndislərimiz və ixtisaslaşdırılmış subpodratçılarla işləyirik





STOLZE

**Stolze Group**
**Stolze Caspian**
**Azerbaijan**

| | |
|---|---|
| **Tel.:** | +994(50) 268 49 75 |
| **E-poçt:** | info@stolzecaspian.com |
| **Veb-sayt:** | www.stolzecaspian.az |
| | www.stolzecaspian.com |